# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№386/1** **11 mart 2026-cı il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının 2025-ci il üzrə fəaliyyətinin yekunlarına dair hesabat barədə**

Auditorlar Palatasının 2026-cı il üzrə iş planının 12.8-ci “Auditorlar Palatasının 2025-ci il üzrə fəaliyyətinin nəticələrinə dair hesabatın hazırlanması, müvafiq qurumlara və ictimaiyyətə çatdırılması” bəndinə müvafiq olaraq hazırlanmış Hesabatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının 2025-ci il üzrə fəaliyyəti qənaətbəxş hesab edilsin (hesabat əlavə olunur).

2. 2025-ci il ərzində Azərbaycan Respublikası Auditorlar Palatasının qanunvericiliklə təsbit olunmuş vəzifələrinin icrası istiqamətində ölkədə auditor xidmətinin təşkili və tənzimlənməsi, auditor xidmətinin inkişafına və təkmilləşməsinə yönəlmiş normativ hüquqi aktların layihələrinin, tədbirlər sisteminin hazırlanması, dövlətin, təsərrüfat subyektlərinin və auditorların (auditor təşkilatlarının) mənafelərinin müdafiə edilməsi, auditor xidmətinin keyfiyyətinə kənar nəzarətin həyata keçirilməsi, kadrların hazırlanması və yenidən hazırlanması, beynəlxalq əlaqələrinin genişləndirilməsi, auditor xidmətində rəqəmsallaşmanın və qabaqcıl texnologiyaların tətbiqi sahəsində aşağıda qeyd edilən işlərin icrası yüksək qiymətləndirilsin:

- “Hesabatlılıq və audit: Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə” kitabının hazırlanması;
- Beynəlxalq Audit Standartlarının və Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) yenilənmiş versiyalarının tərcüməsi, redaktəsi və nəşri;
- “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023–2025-ci illər üzrə Milli Fəaliyyət Planı”nda nəzərdə tutulan tədbirlərin icrası;
- Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi ilə bağlı” Tədbirlər Planına uyğun olaraq “Maliyyə nəzarəti - dövlətin və özəl sektorun konstitusion hüquqlarının müdafiəsinin təminatçısı kimi” mövzusunda konfransın keçirilməsi;
- “Konstitusiya və Suverenlik İli”nə həsr edilmiş “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə nəzarət orqanlarının rolu, vəzifələri və məsuliyyəti” mövzusunda beynəlxalq elmi-praktik konfransın keçirilməsi;
- “Maliyyə Nəzarətinin (Auditin) Formalaşması və İnkişafı – tarixi faktlar” kitabının nəşri;
- Beynəlxalq Mühasiblər Federasiyası (IFAC) və Avropa Mühasiblər və Auditorlar Federasiyasının (EFAA) üzvlük tələblərinin yerinə yetirilməsi, beynəlxalq əlaqələr üzrə çoxsaylı əhəmiyyətli tədbirlərdə iştirak edilməsi, qabaqcıq təcrübənin öyrənilməsi və tətbiqi;
- Auditin aktual problemlərinə dair çoxsaylı seminar, “dəyirmi masa”, ustad dərsi və təlimlərin keçirilməsi;

- “Auditorun şəxsi kabineti” sisteminin təkmilləşdirilməsi;
- Auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə monitorinqlərin aparılması;
- Haqsız rəqabətə qarşı mübarizə üzrə kompleks tədbirlərin həyata keçirilməsi;
- Auditor fəaliyyətində rəqəmsallaşmanın və qabaqcıl texnologiyaların öyrənilməsi və tətbiqi sahəsində işlərin həyata keçirilməsi;
- Palataya yeni üzvlərin qəbul edilməsi və onlara ilkin metodiki dəstəyin göstərilməsi;
- Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə yoxlamaların aparılması.

3. Auditorlar Palatasının rəhbərliyinə (S.Gülməmmədov, Q.Bayramov, F.Qarayev, Ş.Əsgərova) və struktur bölmələrinə (E.İbrahimov, Q.Əhmədov, V.Cavadov, E.Hacıyeva, R.Cəfərli) tapşırılsın ki, Auditorlar Palatasının və onun Şurasının 2026-cı il üzrə iş planlarında, Palata Şurasının qərarlarında, Palata sədrinin əmr və sərəncamlarında nəzərdə tutulmuş işlərin vaxtında və keyfiyyətlə icra olunmasını təmin etsinlər.

4. Auditorlar Palatası sədrinin Rəqəmsallaşma, süni intellekt və kibertəhlükəsizlik üzrə müavini vəzifəsini müvəqqəti icra edən Q.Əhmədova tapşırılsın ki, auditor xidməti sahəsində yüksək texnologiyalardan istifadə, rəqəmsallaşma və süni intellektin tətbiqi, kibertəhlükəsizlik üzrə tədbirlərin həyata keçirilməsi istiqamətində auditin transformasiyasına nail olunmasını və bu sahədə Palatanın üzvlərinə və əməkdaşlarına zəruri dəstəyin göstərilməsini təmin etsin.

5. Auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılsın ki, ölkə iqtisadiyyatında şəffaflığın artırılması, maliyyə hesabatlarının dürüstlüyünün təmin olunması, obyektivliyin qorunması, ƏL/TMM üzrə öhdəliklərinin yerinə yetirilməsi, habelə auditor xidmətinin keyfiyyətinin yüksəldilməsi, müstəqil auditə ictimai etimadın artırılması məqsədilə Beynəlxalq Audit Standartlarının, Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) və Auditorlar Palatasının normativ sənədlərinin tələblərinə ciddi riayət etsinlər.

6. Auditorlar Palatasının icraçı direktoru S.Gülməmmədova və Daxili auditor Ş.Əsgərovaya tapşırılsın ki, bir ay müddətində “Azərbaycan Respublikası Auditorlar Palatasının 2025-ci il üzrə fəaliyyətinin yekunlarına dair hesabat”ın ictimaiyyətə açıqlanması məqsədilə KİV-də məqalənin dərc etdirilməsi təmin edilsin.

7. Auditorlar Palatası sədrinin müşaviri F.Qarayevə və Beynəlxalq əlaqələr şöbəsinə (V.Sərdarov, A.Bayramova) tapşırılsın ki, cari ilin aprel ayının sonunadək “Azərbaycan Respublikası Auditorlar Palatasının 2025-ci il üzrə fəaliyyətinin yekunlarına dair hesabat”ın qısa icmalının ingilis dilinə tərcümə olunması, Auditorlar Palatasının həqiqi üzvü olduğu Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC), Avropa Mühasiblər və Auditorlar Federasiyasına (EFAA) göndərilməsi və Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

8. Bu qərarın və “Azərbaycan Respublikası Auditorlar Palatasının 2025-ci il üzrə fəaliyyətinin yekunlarına dair hesabat”ın mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**